# Orxan Zeynalovla bağlı yeni iddialar: “Hadis□ başqa cür olub“ - Video

16.10.13 21:03



Rusiyada Yeqor Şerbakovu qətlə yetirməkdə şübhəli bilinən Orxan Zeynalovun tanışı və həmyerlisi Əli Məmmədov məsələyə münasibət bildirib. O, Yeqor Şeybakovu təxribatda ittiham edib. Rusiya mətbuatı xəbər verir ki, Əli Məmmədov Pokrov bazarında işləyir, o Orxangilin qonşu kəndi olan Seyfəli kəndinin sakinidir.

Məmmədov Şerbkovun ölümü ilə bağlı rəsmi versiyanın əksini iddia edib. Bildirib ki, hadisə heç də indiyə qədər deyilən kimi olmayıb: “Rəsmi versiyaya görə, Şeybakov sevgilisini evə ötürüb və Orxan onunla tanış olmaq istəyib. Ancaq bizə məlum olana görə, Zeynalov bu qızla gedib, evin qarşısında onları qızın əvvəl görüşdüyü oğlan görüb. Oğlan qızın qolundan tutaraq onu kənara itələyib. Orxan qızı müdafiə etməyə çalışıb. Ölüm də iki nəfər arasında başlayan mübahisə nəticəsində baş verib”. {youtube}O-8ona_oFoA{/youtube}